**Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası**

**QƏRARI**

**№ 47/3**

**Bakı şəhəri** **21 dekabr 2017-ci il**

**"Valyuta mübadiləsi fəaliyyətinə lisenziyanın (lisenziyanın əlavəsinin) alınması üçün ərizənin forması"nın təsdiq edilməsi barədə**

"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 may tarixli 1415 nömrəli Fərmanının 3.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 mart tarixli 828 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsi"nin 5.3.2-ci yarımbəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurası

**Q Ə R A R A  A L I R:**

**1.** "Valyuta mübadiləsi fəaliyyətinə lisenziyanın (lisenziyanın əlavəsinin) alınması üçün ərizənin forması" təsdiq edilsin (əlavə olunur).

**2.** *Baş icraçı direktora (İbrahim Alışov) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.*

***Direktorlar Şurasının sədri*** ***Rüfət Aslanlı***

*Azərbaycan Respublikasının*
*Maliyyə Bazarlarına Nəzarət Palatasının*
*Direktorlar Şurasının "21" "dekabr" 2017-ci il*
*tarixli 47/3 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

**Valyuta mübadiləsi fəaliyyətinə lisenziyanın (lisenziyanın əlavəsinin) alınması üçün ərizənin forması**

**Azərbaycan Respublikasının**
**Maliyyə Bazarlarına Nəzarət Palatasına**

**Valyuta mübadiləsi fəaliyyətinə lisenziyanın**
**(lisenziyanın əlavəsinin) alınması üçün**

## ƏRİZƏ

1. Ərizəçi haqqında məlumatlar:
1.1. Hüquqi şəxsin tam adı/fərdi sahibkarın soyadı, adı, atasının adı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi
________________________________________________________________
1.2. Hüquqi şəxsin hüquqi və faktiki ünvanı /fərdi sahibkarın ünvanı
________________________________________________________________
1.3. Hüquqi şəxsin/fərdi sahibkarın VÖEN-ni
________________________________________________________________
1.4. Əlaqə telefonu
________________________________________________________________
1.5. Elektron poçt ünvanı ______________________________________________
1.6. Valyuta mübadiləsi fəaliyyətinin həyata keçiriləcəyi ünvan
________________________________________________________________
2. Valyuta mübadiləsi fəaliyyətinə lisenziya (lisenziyanın əlavəsini) verilməsini xahiş edirəm.
3. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

| Sıra №-si | Sənədlərin adı | Nüsxələrin sayı | Vərəqlərin sayı | Qeyd |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

4. Ərizənin doldurulduğu tarix
________________________________________________________________
(gün, ay, il)
5. Hüquqi şəxsin səlahiyyətli nümayəndəsinin vəzifəsi (olduqda), adı, soyadı və atasının adı
________________________________________________________________
6. Hüquqi şəxsin səlahiyyətli nümayəndəsinin səlahiyyətini təsdiq edən sənədin adı, nömrəsi (olduqda) və verilmə tarixi
________________________________________________________________
7*. Fərdi sahibkarın səlahiyyətli nümayəndəsinin adı, soyadı və atasının adı
________________________________________________________________
8*. Fərdi sahibkarın səlahiyyətli nümayəndəsinin səlahiyyətini təsdiq edən sənədin adı, nömrəsi (olduqda) və verilmə tarixi

9*. Hüquqi şəxsin səlahiyyətli nümayəndəsinin/fərdi sahibkarın/fərdi sahibkarın səlahiyyətli nümayəndəsinin imzası

______________ ______________

(adı, soyadı) (imza)

**M.Y.**

* Valyuta mübadiləsi fəaliyyətinə lisenziyanın (lisenziyanın əlavəsinin) alınması üçün fərdi sahibkarın səlahiyyətli nümayəndəsi tərəfindən müraciət edildikdə bu Ərizə formasının 7-8-ci bəndləri doldurulur və Ərizə həmin şəxs tərəfindən imzalanır.